Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

# Gənc nəslin vətənpərvər yetişməsində növbəti ideoloji mənbə - antiterror...

**Bakıda Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda Prezident İlham Əliyev çıxışında deyib: "Mən çalışmışam ki, fəaliyyətim dövründə gənclərin tərbiyə olunması ilə bağlı daha çox işlər görək. Çox şadam, fəxr edirəm ki, Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi.**

Bu, hər birimiz üçün qürur mənbəyidir. Çünki elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarixi görməyən gənclər Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə gedirdilər və şəhid oldular, qazi oldular və müzəffər Ordumuzun şöhrətini yüksəklərə qaldırdılar. Əgər bu siyasət olmasaydı, əgər gənclər vətənpərvərlik ruhunda tərbiyə almasaydılar, bilmək olmazdı müharibənin nəticələri necə ola bilərdi.

Milli ruh, milli ləyaqət və vətənpərvərlik onları irəliyə aparırdı. Belə xalqla heç kim mübarizə apara bilməz. Bilirsiniz, müharibənin bir çox dərsləri var - həm bizim üçün, həm bütün dünya üçün, region üçün. Onlardan biri də odur ki, azərbaycanlılarla mübarizə aparmaq, müharibə aparmaq çox baha başa gələ bilər".

### Şəhid olan gənclərimizin böyük əksəriyyətinin yaşı artıq tarixə qovuşan münaqişənin yaşından az idi

Əlbəttə ki, bu nəslin yetişdirilməsi üçün biz, sadəcə olaraq, hansısa proqramları tərtib edib, müşavirə keçirib, məruzə dinləyib öz işimizi məhdudlaşdıra bilməzdik. Vətənpərvər olmaq üçün hər bir insanın ürəyində Vətənə bağlılıq olmalıdır, sədaqət olmalıdır. Ancaq, eyni zamanda, hər bir insan, xüsusilə gənclər haqlı olaraq öz Vətəni ilə fəxr etməlidir.

Vətən müharibəsi ona görə Vətən müharibəsi adlandırılır ki, bütün xalq bu müharibədə Qələbə əldə etmək üçün çalışırdı. Azərbaycan gəncliyi hər zaman vətənpərvərlik ruhunda yetişib, milli və dövlətçilik maraqlarımızın qorunması istiqamətində fəaliyyət göstərib. Biz 44 günlük Vətən Müharibəsində də bunun əyani şahidi olduq. Əmin olduq ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil formalaşıb. Gənclərimiz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Vətən Müharibəsinin əsas qəhrəmanları kimi sözün həqiqi mənasında tarix yazdılar. Məhz Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi müddətdə yetişən gənc nəsil tarixi torpaqlarımızı işğaldan azad etdi. Müharibədən əvvəl Tovuz əməliyyatlarında minlərlə gəncin könüllü şəkildə orduya yazılmaq istəyi də göstərirdi ki, bu illər ərzində torpaqlarımızın işğal altında qalmasına baxmayaraq yaşlı nəsil kimi gənc nəsil də bir amalla yaşayır - Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, tarixi torpaqlarımızı işğaldan azad etmək.



Halbuki münaqişənin həllində maraqlı tərəf kimi görünməyə çalışan əksər beynəlxalq təşkilatlar həll prosesinin məqsədli şəkildə dondurularaq, uzadılmasına çalışırdı. Onların əsas məqsədi gənclərimizə, yeni nəslə işğal tarixini unutdurmaq, bizim təslimçi sülhlə razılaşmağımıza nail olmaq idi.

Amma bu çirkin cəhdlərin heç biri baş tutmadı. Azərbaycan gənci nəinki işğal faktını unutmadı, əksinə hər zaman Ali Baş Komandandan əmr gözlədi. Müharibədə iştirak edən və şəhid olan gənclərimizin böyük əksəriyyətinin yaşı artıq tarixə qovuşan münaqişənin yaşından az idi.

### Onların qəhrəmanlığı, şücaəti, fədakarlığı hər bir azərbaycanlı üçün örnək olmalıdır

Azərbaycanın bugünlərdə Qarabağda keçirdiyi antiterror tədbirlərinin yüksək effektivliyi bir daha göstərdi ki, Azərbaycan Silahlı Qüvvələri istənilən hərbi tapşırığın öhdəsindən yüksək məharətlə gəlməyə qadirdir. Tam əminliklə demək olar ki, bu əməliyyatlar dünya hərb salnaməsinə düşməklə, hələ onillər boyu hərbi akademiyalarda, yüksək rütbəli zabitlər hazırlayan tədris müəssisələrində bir etalon kimi tədqiq ediləcək, öyrəniləcəkdir. Şanlı Ordumuzun yüksək peşəkarlığı nəticəsində düşmənin hərbi obyektləri sıradan çıxarılmış, darmadağın edilmişdir. Bu zaman mülki əhaliyə zərər verilməmiş, yalnız xüsusi hədəflər yüksək dəqiqliklə sıradan çıxarıldı.

Bu tədbirlərdə də gənclərimiz böyük şücaət göstərdi. Şəhid olan və yaralananların böyük əksəriyyəti gənclərdi.

Şəhidlərin, qazilərin həyatının öyrənilməsi, onların keçdiyi döyüş yolunun gələcək nəsillərə ötürülməsi bu istiqamətdə aparılmalı vacib işlərdəndir. Onların qəhrəmanlıqlarının öyrənilməsi gənclərin vətənpərvər ruhda böyüməsində böyük rol oynaya bilər. Həm ailə daxilində, həm də təhsil müəssisələrində hər bir fərd, hər bir Azərbaycan vətəndaşı müharibə qəhrəmanlarının həyat yolunu özlərinə nümunə seçməlidir. Bu, milli mənlik şüurunun inkişafında vacib amillərdən biridir.

Qəhrəmanlıq bir anda olur, amma neçə əsr, neçə qərinə danışılır. Qəhrəmanlıq mənəviyyat zənginliyindən irəli gəlir. Qəhrəmanlıq davranışı ən təhlükəli vəziyyətə də açıq gözlə baxaraq öz ləyaqəti, təmkini ilə müasir və gələcək nəslin tərbiyəsində müstəsna rol oynayır.

Hər zamanın öz qəhrəmanı olur.

Müharibə itkisiz olmur. Bizim müharibəmiz azadlıq müharibəsi idi, ədalətli müharibə idi. Ermənistan işğalçılıq müharibəsi aparırdı. Haqq-ədalət bizim tərəfimizdədir. Ona görə bizim hərbçilərimiz şəhidlik zirvəsinə ucalaraq Vətən qarşısında öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirmişlər. Onların qəhrəmanlığı, şücaəti, fədakarlığı hər bir azərbaycanlı üçün örnək olmalıdır!

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**